www.amu.edu.az

TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-19 (1758) 15 noyabr 2022-ci il

“Ərazi bütövlüyümüzlə yanaşı, milli qürurumuzu da bərpa etdik”

Prezident İlham Əliyev Zəfər Günü münasibətilə Şuşada təşkil olunan tədbirdə iştirak edib

səh. 2

ATU-da akkreditasiya prosesinə dair beynəlxalq seminar keçirilib

səh. 4

Lənkəranda şəhid ailəsi üzvləri və qazilər müayinə olunub

səh. 5

Tanınmış əcnəbi professorlar ATU-da çıxış edib

səh. 5

Zəfər Günü - şərəf və qürur salnaməmiz

Azərbaycan Tibb Universitetində 44 günlük Vətən müharibəsində qələbənin ildönümünə həsr olunmuş tədbir keçirilib

səh. 3

Düzgün diaqnoz müalicənin əsasını təşkil edir

Noyabrın 8-i Beynəlxalq Radioloqlar Günüdür

səh. 7

Yüksək temperatur, bəlğəmli öskürək, təngnəfəslik...

Dosent Rafiq Bayramov pnevmoniyanın səbəbləri və müalicəsi haqda danışır

səh. 7

Rektor, professor Gəray Gəraybəyli şəhid ailəsi üzvü olan əməkdaşlarımızla görüşüb

səh. 4

“Ərazi bütövlüyümüzlə yanaşı, milli qürurumuzu da bərpa etdik”

Prezident İlham Əliyev Zəfər Günü münasibətilə Şuşada təşkil olunan tədbirdə iştirak edib

Noyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev Zəfər Günü münasibətilə Şuşada təşkil olunan tədbirdə iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı hərbçilər qarşısında çıxış edib.

Prezident İlham Əliyevin çıxışı

- Əziz hərbçilər.

Mən sizi və bütün Azərbaycan xalqını Zəfər Günü münasibətilə təbrik edirəm.

İlk növbədə, xahiş edirəm ki, Vətən uğrunda həlak olmuş qəhrəman şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad edək.

***

Şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

***

Prezident İlham Əliyev: Allah bütün şəhidlərimizə rəhmət eləsin.

Alınmaz qala sayılan Şuşanı iki il bundan əvvəl erməni işğalından azad edən Azərbaycan Silahlı Qüvvələri şanlı tarix yazdı. Bu şanlı tarix bizimlə əbədi olacaq. Azərbaycan xalqı, gələcək nəsillər bu şanlı Qələbə ilə haqlı olaraq fəxr edəcəklər.

Şuşa həqiqətən alınmaz qala sayılırdı. Şuşanı yüngül silahlarla təchiz edilmiş qəhrəman hərbçilərimiz azad edəndə, onlar ölümə gedirdilər. Vətən uğrunda, torpaq uğrunda ölümə gedirdilər. Hər birimiz yaxşı anlayırdıq ki, Şuşasız bizim tam qələbəmiz mümkün olmayacaq.

Müharibə dövründə çoxsaylı müsahibələrdə mən müharibənin gedişatı ilə bağlı bəzi məqamları açıqlayırdım. Təbii ki, hər şeyi deyə bilmirdim. Xüsusilə gələcək planlar haqqında bir çox şeyləri deyə bilmirdim. Verilən suala cavab olaraq cəmi bir dəfə demişdim ki, Şuşasız bizim qələbəmiz yarımçıq olacaq. Əminəm, Azərbaycan xalqı yaxşı anladı ki, bizim son məqsədimiz, müharibənin son məqsədi Şuşanı işğaldan azad etməkdir. Təkcə ona görə yox ki, Şuşa Qarabağın tacıdır. Ona görə yox ki, Şuşanın strateji yerləşməsi faktiki olaraq onun azad olunmasından sonra müharibənin taleyini həll edirdi. O cümlədən ona görə ki, Şuşa Azərbaycan xalqının ürəyidir, canıdır, hər bir azərbaycanlı üçün müqəddəs yerdir. Hər dəfə Şuşada olarkən, - mən son iki il ərzində Şuşada on dəfədən çox olmuşam, - hər dəfə Zəfər yolu ilə Şuşaya yaxınlaşarkən mən və əminəm ki, hər bir insan bir daha hərbçilərimizin qəhrəmanlığını, fədakarlığını, peşəkarlığını görür. Qəhrəman övladlarımız dağlardan, meşələrdən, dərələrdən, cığırlardan bu uzun məsafəni qət edərək, qanlı döyüşlərdə düşməni məğlub edərək Şuşaya yaxınlaşıb. Ondan sonra sıldırım qayalara dırmaşaraq, yüngül silahlarla küçə döyüşlərində, şəhər döyüşlərində, əlbəyaxa döyüşlərdə düşməni məğlub edib, torpağımızdan qovub, üçrəngli bayrağımızı Şuşada qaldırıb. İllər keçdikcə hərbçilərimizin qəhrəmanlığı hər kəs üçün daha bariz şəkildə aydın olacaq.

Şuşaya gedən yol 27 sentyabr tarixində başlamışdır. Müharibənin ilk günündən son gününə qədər Azərbaycan Silahlı Qüvvələri yalnız irəli gedirdi, 44 gün ərzində bir gün də geri addım atmamışdı. Halbuki, biz dünya hərb tarixindən bilirik ki, belə çətin müharibələrdə, xüsusilə bizim üçün əlverişsiz relyef şəraitində gedən müharibələrdə manevrlər də olur, geriyə addımlar da olur və gözlənilməz hadisələr də olur. Ancaq bizi Qələbəyə aparan güclü iradə idi, Vətən sevgisi idi, hərbçilərimizin peşəkarlığı idi.

Şuşanın azad edilməsi Ermənistan ordusunun belini qırdı. Faktiki olaraq, müharibənin ilk günlərindən Ermənistan təşviş içində idi, bəzi hallarda panikaya qapılırdı, isterikaya qapılırdı. Məhz buna görə də Ermənistan ordusunda 10 mindən çox fərari olmuşdur, onların özlərinin etirafıdır. Azərbaycan Ordusunda bir nəfər də olsun fərari olmamışdır. Bu, xalqımızın yüksək mənəvi keyfiyyətlərindən xəbər verir.

Qələbəyə gedən yol keşməkeşli və çətin idi. Birinci Qarabağ müharibəsindəki məğlubiyyət xalqımızı mənəvi cəhətdən sarsıtmışdır. O məğlubiyyətin də səbəbləri bəllidir. O vaxt antimilli ünsürlər hakimiyyəti zəbt etmişdilər, hakimiyyət uğrunda mübarizə aparmışdılar, Şuşa kimi alınmaz qalanı faktiki olaraq Ermənistana, ermənilərə təslim etmişdilər hakimiyyətə gəlmək üçün və belə də oldu. Şuşa və Laçın işğala məruz qalandan bir ay sonra AXC-Müsavat cütlüyü hakimiyyətə gəldi. Onlar bu faciə üzərində, tökülən bu qan üzərində, milli rəzalət üzərində hakimiyyətə gəldilər və hakimiyyətdə qaldıqları bir il ərzində ölkəmizi bərbad vəziyyətə qoydular, vətəndaş müharibəsinə start verdilər, öz əsgərlərini əsir götürdülər. Torpaqlar əldən gedirdi, onlar isə talançılıq, soyğunçuluqla məşğul olurdular.

Yəni, Birinci Qarabağ müharibəsində məğlubiyyət labüd idi. Çünki antimilli hakimiyyət müharibədə qələbə qazana bilməz. İşğal dövründə Ermənistanın rəsmi təbliğatı, onların havadarlarının media resursları bir fikri bütün dünyaya, eyni zamanda, Azərbaycan xalqına bildirməyə çalışırdı ki, Azərbaycan öz ərazi bütövlüyünü heç vaxt müharibə yolu ilə bərpa edə bilməz. Beynəlxalq qurumların nümayəndələrinin, bu məsələ ilə məşğul olan ölkələrin vəzifəli şəxslərinin çıxışlarına baxmaq kifayətdir. Onlar neçə dəfə demişdilər ki, bu müharibənin, bu münaqişənin hərbi həlli yoxdur. Yəni, birincisi, bizi inandırmağa çalışırdılar. İkincisi, bizi məsələni hərbi yolla həll etməkdən çəkindirməyə çalışırdılar. Biz də təbii ki, çalışırdıq bu məsələ sülh yolu ilə həll olunsun, ancaq həll olunsun. Amma biz görürdük ki, sadəcə olaraq, danışıqlar taktikası məsələnin dondurulmasına aparır və əlbəttə ki, bununla heç vaxt razı ola bilməzdik.

Nəhayət, Azərbaycan xalqı bir yumruq kimi birləşərək tarixi missiyasını yerinə yetirdi. Müharibəyə gedən yol bir çox istiqamətlərdən keçmişdir. İlk növbədə, biz özümüz ordumuzu lazımi silahlar və texnika ilə təchiz etməli idik. Bunun üçün də güclü iqtisadiyyat olmalı idi. Azərbaycan müstəqilliyi əldə edəndə bizim maliyyə, iqtisadi vəziyyətimiz çox ağır idi. Ona görə güclü iqtisadiyyatın yaradılması müharibədə qələbənin qazanılması işində önəmli amil kimi nəzərə alınırdı və biz bunu etdik. Bizim iqtisadiyyatımız gücləndi, biz öz hesabımıza yaşayırıq, heç kimin yardımına ehtiyacımız yoxdur, heç kimdən asılı deyilik, özümüz imkan daxilində öz həyatımızı qururuq və yaxşı da qururuq.

İndi dünyada müxtəlif yerlərdə gedən iqtisadi proseslər, çətinliklər, böhranlar onu göstərir ki, Azərbaycan iqtisadiyyatı dayanıqlı iqtisadiyyatdır. Belə ağır müharibədən çıxmış ölkə azad edilmiş torpaqlarda iki il ərzində genişmiqyaslı quruculuq işləri aparır. Bütün bu işlərin də maliyyə mənbəyi Azərbaycan büdcəsidir. Əgər biz kimdənsə iqtisadi cəhətdən asılı olsaydıq, müharibəni uğurla başa vura bilməzdik.

Eyni zamanda, biz Ermənistanın işğalçılıq siyasətini ifşa etməli idik. Çünki əfsuslar olsun Ermənistanın nəzarətində olan beynəlxalq media resursları, satılmış siyasətçilər, onların xaricdəki havadarları, erməni lobbisi - onlar belə bir rəy yaratmışdılar ki, sanki Azərbaycan təcavüzkardır. Ona görə beynəlxalq müstəvidə çox fəal iş aparırdıq. Aparıcı beynəlxalq təşkilatlar – BMT, ATƏT, Avropa İttifaqı, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası bizim mövqeyimizi dəstəkləyən, yəni, haqq-ədaləti ifadə edən qərar və qətnamələr qəbul etmişdir. Yəni, bu, çox önəmli beynəlxalq hüquqi zəmin idi.

Bununla paralel olaraq, bir çox ölkələrlə ikitərəfli formatda sıx əməkdaşlıq əlaqələri yaratmışıq, həm yerləşdiyimiz bölgədə, həm də digər qitələrdə. Təkcə Avropa İttifaqına üzv ölkələrin doqquzu, digər ölkələr Azərbaycanla strateji tərəfdaşlıq bəyannamələri imzalayıb. Bu da Avropa İttifaqına üzv ölkələrin üçdəbir hissəsidir. Yəni, bu beynəlxalq əlaqələr və Azərbaycanın beynəlxalq nüfuzu bizə imkan verdi ki, daha çox dostlar qazanaq, eyni zamanda, Qarabağ həqiqətlərini, erməni işğalı ilə bağlı həqiqətləri dünya birliyinə çatdıraq və çatdırdıq. Bütövlükdə götürəndə 44 gün ərzində müharibə ilə bağlı beynəlxalq yanaşma müsbət idi. Düzdür, bəzi ermənipərəst ölkələr və Ermənistanla yaxın əlaqələrdə olan ölkələr bizə qarşı bəzi siyasi addımlar atmağa çalışırdılar. Amma onlar da heç bir səmərə vermədi. Çünki biz bu illər ərzində güclü beynəlxalq dəstək qazandıq. Biz müsəlman ölkələri ilə sıx əlaqələr qurduq və onlara izah etməyə nail olduq ki, Ermənistan təkcə bizə qarşı yox, bütün müsəlman aləminə qarşı təcavüzkar siyasət aparır. Məscidləri dağıdan müsəlman ölkələri ilə dost ola bilməz. Məscidləri dağıdana müsəlman ölkələrinin rəhbərləri qucaq aça bilməz, bilər? Onları qucaqlayıb öpə bilər? Bu, riyakarlıqdır, bu, satqınlıqdır. Bunun başqa adı yoxdur. Ona görə müsəlman aləmində biz Ermənistanı əsas dayaqlardan təcrid etdik.

İkinci Qarabağ müharibəsi ölkəmizdə milli həmrəyliyi, milli birliyi daha da gücləndirdi, ölkəmizi gücləndirdi. Biz bu ağır yükü çiynimizdən atdıq, bu damğanı boynumuzdan atdıq. Biz indi başımızı dik tutub istənilən tədbirdə, istənilən formatda sözümüzü deyirik. Biz üzümüz ağ, alnımız açıq, müzəffər xalq kimi yaşayırıq. Buna görə sizə və sizin kimi on minlərlə hərbçiyə borcluyuq. Azərbaycan xalqı bunu bilir və yaxşı qiymətləndirir.

İkinci Qarabağ müharibəsinin dərsləri Ermənistan tərəfindən unudulmamalıdır və onlar bilməlidirlər ki, odla oynamaq onlara baha başa gələcək. Əgər orada kimsə – istər iqtidar, istər müxalifət, istərsə də xaricdən göndərilmiş, öyrədilmiş hansısa ünsür yenidən bizə qarşı hansısa bəd fikirdə olmaq niyyətindədirsə, o, bizim yumruğumuzu bir daha görəcək və son iki ilin tarixi bunu göstərdi. Hətta bu il “Fərrux” əməliyyatı, “Qisas” əməliyyatı, 13-14 sentyabr Ermənistan-Azərbaycan sərhədindəki hadisələr - bütün bunlar Ermənistan üçün dərs olmalıdır. Biz bu dərsi öyrədirik və ümid edirik ki, nəhayət, onlar bunu anlayacaqlar, boyunlarını büküb öz daxili işləri ilə məşğul olacaqlar, bizim torpağımıza göz dikməyəcəklər, Qarabağa göz dikməyəcəklər. Qarabağ bizim torpağımızdır. Rus sülhməramlılar orada müvəqqəti yerləşiblər, 2020-ci ilin 10 noyabr Bəyanatında onların müddəti göstərilir və əgər kiməsə bel bağlayırlarsa, yenə də faciə ilə üzləşəcəklər.

Biz iki il ərzində böyük quruculuq işləri görmüşük, Qarabağı və Şərqi Zəngəzuru faktiki olaraq yenidən qururuq və quracağıq. Eyni zamanda, Ordumuzu gücləndiririk və gücləndirəcəyik.

Biz sülh istəyirik, biz müharibə istəmirik. Sülh, amma ədalətli sülh. İrəli sürdüyümüz şərtlər ədalətlidir, beynəlxalq hüquqa əsaslanır və sülh müqaviləsi bu şərtlər əsasında imzalanmalıdır. Əgər Ermənistan xoş niyyət göstərsə, bu, imzalanacaq, göstərməsə, imzalanmayacaq. Ondan sonra nə olacaq, onu həyat göstərər.

Dediyim bütün bu sözlərin bir mənbəyi var - həm bizim güclü iradəmiz, həm də Vətən müharibəsindəki Qələbəmiz! Bu Qələbə imkan verir ki, biz bu sözləri hamının üzünə, bizə xor baxanların gözünə deyək. Bu Qələbə, bu Zəfər bizə bu imkanı verdi, bütün xalqımıza inam verdi, ruh verdi. Biz təkcə ərazi bütövlüyümüzü yox, milli qürurumuzu bərpa etdik. Buna görə, əziz hərbçilər, sizə borcluyuq, sizin kimi on minlərlə əsgər, zabitə borcluyuq və Azərbaycan xalqı bunu yaxşı bilir. Mən də Ali Baş Komandan kimi sizinlə fəxr edirəm.

Hərbçilər: Yaşasın Ali Baş Komandan!

Prezident İlham Əliyev: Yaşasın Qarabağ! Yaşasın Azərbaycan!

* * *

Sonda hərbi qulluqçuların təntənəli keçidi oldu.

Zəfər Günü - şərəf və qürur salnaməmiz

Azərbaycan Tibb Universitetində 44 günlük Vətən müharibəsində qələbənin ildönümünə həsr olunmuş tədbir keçirilib

Məğlubiyyət acısına ancaq qalibiyyət sevinci məlhəm ola bilər. Ona görə də xalqımızın şanlı qələbəmizə bu qədər təşnə olması təbiidir. Cəsur oğullarımızın imzası ilə hərb tarixinə düşən, ümumxalq bayramına çevrilən 8 noyabr – Zəfər Günü artıq 2-ci ildir ki, ölkəmizin hər yerində olduğu kimi, Azərbaycan Tibb Universitetində də böyük təntənə ilə qeyd edilir. Bu münasibətlə ATU-da professor-müəllim heyətinin, tələbələrin və dəvət olunmuş qonaqların iştirakı ilə ədəbi-bədii gecə keçirilib. Tədbir iştirakçıları əvvəlcə universitet şəhərciyində şəhid məzunların xatirəsinə ucaldılmış abidə kompleksinin önünə güllər qoyublar.

Tədbir Azərbaycanın ərazi bütövlüyü uğrunda canını fəda etmiş şəhidlərin əziz xatirəsinin bir dəqiqəlik sükutla anılması və dövlət himnimizin səsləndirilməsi ilə başlayıb.

Azərbaycanın səhiyyə naziri Teymur Musayev giriş nitqində 44 günlük Vətən müharibəsində qazanılmış misilsiz qələbənin əbədiləşdirilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin 3 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən təsis edilmiş Zəfər Günü münasibətilə tədbir iştirakçılarını təbrik edib. Hər bir Azərbaycan vətəndaşının qürur və fəxarət mənbəyi olan bu günün milli dəyərlərimizi özümüzə qaytardığını, regionda yeni geosiyasi reallıqlar formalaşdırdığını vurğulayıb: "Dünya arenasındakı nüfuzlu ölkələr Azərbaycanla, onun milli maraqları ilə hesablaşmaq məcburiyyətində qaldılar. Zəfər Günü 44 günlük Vətən müharibəsində birliyimizin rəmzi, Müzəffər Ali Baş Komandan İlham Əliyevin başçılığı altında rəşadətli ordumuzun parlaq qələbəsinin simvoludur. Bu günün tarixi 44 günlə yanaşı, ötən 30 il ərzində yazılıb. Qarabağı 30 il ərzində unutmağa qoymayan hər kəs bu salnamənin səhifəsidir".

Çıxışında qələbəmizə bilavasitə təsir edən amillərə də toxunan nazir, parlaq qələbəmizin təminatında müasir hərb elminin yeniliklərindən xəbərdar olan və onları yüksək peşəkarlıqla tətbiq edən zabitlərin, qorxmaz əsgərlərin, rəşadətli ordumuzun misli görünməmiş qəhrəmanlığından söhbət açıb. Vətən müharibəsində qələbəmizin təkcə döyüş meydanında deyil, diplomatik cəbhədə, informasiya müharibəsində, tibbi yardım sahəsində də təmin edildiyini xatırladan T.Musayev bildirib ki, ərazilərimizin işğaldan azad edilməsi məqsədilə aparılan əks-hücum əməliyyatı ölkə səhiyyəsi üçün də növbəti ciddi sınaq idi: "44 günlük Vətən müharibəsində yaralananların həyatı uğrunda savaşda tibb işçiləri vəzifə borclarını peşəkarcasına, ləyaqətlə, vicdanla yerinə yetirdilər. Yüzlərlə tibb işçisi vətənimizin ərazi bütövlüyünün bərpa edilməsi zamanı fədakarlıq və rəşadət göstərdiklərinə görə orden və medallarla təltif edildi. Yaralıların həyatı uğrunda mübarizədə bütün tibb ictimaiyyəti səfərbər oldu. Həm hərbi, həm də mülki həkimlərimiz hər bir yaralının xilası, tam sağalması, normal həyata qayıtması uğrunda eyni əzmkarlıqla çalışdılar və bu gün də çalışmaqdadırlar".

Nazir yaralı əsgər və zabitlərimizin sağlamlıqlarının bərpası zamanı son dövrdə ölkə səhiyyəsinin inkişafı, onun maddi-texniki bazasının gücləndirilməsi, kadr potensialının möhkəmləndirilməsi istiqamətində görülən işlərin böyük rolu olduğunu da vurğulayıb: "Paytaxtda və regionlarda yeni tibb müəssisələrinin açılması, xüsusilə cəbhəyanı bölgələrdə ən müasir tibbi avadanlıqlarla təchiz olunmuş rayon mərkəzi xəstəxanaları, müalicə-diaqnostika mərkəzlərinin yaradılması lazımi məqamda yaralılara yardım göstərilməsi üçün vaxtında atılmış zəruri addım idi".

Müharibə və ondan sonrakı dövrdə yaralıların həyatı və sağlamlığı uğrunda Azərbaycan Tibb Universitetinin professor-müəllim heyətinin, əməkdaşlarının, rezidentlərinin və tələbələrinin xidmətlərini də yüksək qiymətləndirən nazir, böyük fədakarlıqla hər bir xəstənin, yaralının həyatı uğrunda əlindən gələni əsirgəməyən bütün tibb işçilərinə minnətdarlığını bildirib. Xəsarət alan şəxslərə Allahdan şəfalar diləyib, tezliklə sağlamlıqlarına qovuşmalarını arzulayıb.

"Hər sahədən olan həkimlərimiz Vətənin çağırışı ilə könüllü olaraq cəbhə bölgəsində xidmət etdilər. Azərbaycanın tibb işçiləri əsl qəhrəmanlıq və öz peşələrinə sədaqət nümayiş etdirərək həm ön, həm də arxa cəbhədə yüzlərlə yaralı hərbçimizi həyata qaytardılar. Təəssüf ki, öz vəzifə borcunu yerinə yetirən zaman həkim və tibb işçiləri arasında şəhidlərimiz də oldu. Onların xatirəsini daim əziz tuturuq. Azərbaycan tarixinə qızıl hərflərlə yazılan Zəfər Günü şərəf və qürur günümüz oldu. Biz hər il bu günü fəxrlə, sevinclə, qələbəni bizlərə bəxş edən hər kəsə minnətdarlıq hissi ilə qeyd edəcəyik. Qoy bundan sonra Vətənimizin hər ili qalibiyyət ili olsun" - deyərək nazir Teymur Musayev fikrini tamamlayıb.

Bayram tədbirində professor-müəllim heyətini, tələbələri və qonaqları salamlamaqdan qürur duyduğunu deyən ATU-nun rektoru, professor Gəray Gəraybəyli, milli yaddaşımıza qızıl hərflərlə həkk olunan möhtəşəm Zəfər Gününü yurdumuzun qəhrəmanlıq salnaməsi kimi dəyərləndirib: "Böyük türk və dünya alimi, Nobel mükafatı laureatı Əziz Sancarın da dediyi kimi, Qarabağ zəfəri türk dünyasının son 200 ildə qazandığı ən böyük zəfərdir. 30 illik həsrətə son qoyan bu əzəmətli qələbə düşmən işğalında olan əzəli torpaqlarımızın azad edilməsi və ərazi bütövlüyümüzün təmin edilməsi günüdür. Hər bir azərbaycanlı bu qələbəyə, bu zəfərə inanırdı. Bu böyük inam hissini xalqımızda ulu öndər Heydər Əliyev yaratmışdır. O, vaxtilə Şuşa haqqında, Qarabağ haqqında danışanda həmişə "biz bu torpaqlarımıza qayıdacayıq" deyirdi. Hesab edirəm ki, məhz bu inam zəfərimizin başlanğıcı idi. Bəli, biz bu torpaqlara qayıtdıq. Ulu öndərin xalqımızda yaratdığı inam və Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, Azərbaycan əsgərinin rəşadəti, xalqımızın birliyi bizləri Qarabağa qovuşdurdu".

Azərbaycan torpaqlarının qarış-qarış, kənd-kənd azad edildiyini, 8 noyabrda Qarabağın tacı, ölkəmizin ən dilbər guşələrindən biri, muğamımızın beşiyi Şuşanın mənfur düşmən tapdağından qurtulduğunu söyləyən rektor, qardaş Türkiyənin Azərbaycana verdiyi güclü siyasi və mənəvi dəstəyi xüsusi məmnunluqla yada salıb. Eyni zamanda bu böyük qələbənin itkisiz qazanılmadığını da təəssüflə xatırladıb: "Düşmənlə savaş meydanında yüzlərlə Azərbaycan gənci canını, sağlamlığını qurban verməli oldu. Qarabağ torpaqları uğrunda döyüşlərdə vuruşmuş qazilərimizə şəfa və uzun ömür diləyirik. Şəhid olmuş Vətən oğullarımızın ruhu qarşısında baş əyirik. Onu da qeyd edim ki, müharibədə şəhid olan hərbçilərimizdən 18 nəfəri həkim və hərbi feldşerdir. Həmin həkim və feldşerlər universitetimizin Hərbi tibb fakültəsinin yetirmələridir".

Professor G.Gəraybəyli universitetimizin məzunları, əməkdaşları, o cümlədən həkim və tibb işçilərinin Vətən müharibəsi zamanı və sonrakı dövrdə qazilərimizin reabilitasiya və müalicəsində göstərdikləri peşəkar yardımların xalqımız tərəfindən yüksək qiymətləndirildiyini də vurğulayıb.

II Qarabağ müharibəsindəki möhtəşəm qələbəmizi xalq və iqtidar birliyinin nəticəsi kimi səciyyələndirən rektor, 44 günlük qəhrəmanlıq savaşımızın tarix boyu qürur mənbəyimiz olaraq qalacağını diqqətə çatdırıb.

Bundan sonra "Qan yaddaşımız" videoçarxı nümayiş olunub. Həmçinin ATU-nun tələbələri "Şəhid anası" tamaşasını təqdim ediblər.

Daha sonra ədəbi-bədii gecə rəngarəng konsert proqramı ilə davam edib.

Tədbirin aparıcısı Əli Əliyev tələbə ifaçılarımızın Zəfər yolu ilə Qarabağımıza qastrol səfərinə gedib, müxtəlif festivallarda iştirak etməsi arzusu ilə sözü musiqiyə verib. ATU-nun "Çinar" rəqs ansamblı və "Şəfa" xalq çalğı alətləri ansamblının üzvləri tədbir iştirakçılarına əsl qələbə ovqatı yaşadıblar. Müalicə-profilaktika fakültəsinin I kurs tələbələri Roza Ağayeva və Şamil Əliyev, II kurs tələbəsi Məryəm Nayıbova, III kurs tələbələri Nicat Əhmədov və Nihad Salahlı, IV kurs tələbələri Ülkər Gülmalıyeva və Minayə Yusifova, Hərbi tibb fakültəsinin VI kurs tələbəsi Nicat Nəsibli, Əczaçılıq fakültəsinin II kurs tələbəsi Sona Əkbərli, "Şəfa" xalq çalğı alətləri ansamblının fəxri üzvü Əziz Əhmədli və 6 yaşından ATU-nun bütün tədbirlərində yeganə kənar ifaçı qismində çıxış edən Fatimənin ifaları tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılanıb.

Arif MƏMMƏDLİ

Rektor, professor Gəray Gəraybəyli şəhid ailəsi üzvü olan əməkdaşlarımızla görüşüb

Azərbaycan Tibb Universitetinin rəhbərliyi ilə Qarabağ müharibəsi şəhidlərinin ailə üzvləri olan əməkdaşlarımız arasında görüş keçirilib. ATU-nun rektoru, professor Gəray Gəraybəyli və prorektorların iştirakı ilə keçirilən səmimi görüşdə rektor görüş iştirakçılarına Zəfər Günü münasibətilə təbriklərini çatdırıb.

Rektor Zəfər Günü ərəfəsində hər kəsin ikili hisslər keçirdiyini, həm sonsuz qürur, həm də şəhidlərimiz üçün kədərləndiyimizi bildirib. O, ATU-nun məzunlarından 18 nəfərin şəhid olduğunu qeyd edərək, onların xatirəsinin daim qəlblərimizdə yaşayacağını vurğulayıb. Əlavə edib ki, 30 ildir həsrətində olduğumuz torpaqlarımız məhz bu gənclərin şücaəti, yenilməzliyi sayəsində azad olunub. Cənab prezident İlham Əliyevin illərdir apardığı müdrik siyasət nəticəsində yetişən bu vətənpərvər nəslin nümayəndələri torpaqlarımızın azadlığı naminə öz canlarını qurban veriblər.

Professor Gəray Gəraybəyli universitet əməkdaşları arasında şəhid ailəsi üzvlərinin daim rəhbərliyin diqqət mərəzində olduğunu, onların sosial problemlərinin həllinə yardım göstərməyə hazır olduqlarını bildirib. Rektor görüşün sonunda hər kəsi Zəfər Günü münasibətilə bir daha təbrik edib, bütün xalqımıza yalnız xoş günlər arzulayıb.

Qeyd edək ki, görüşdə hər iki Qarabağ müharibəsi şəhidlərinin ailə üzvləri iştirak ediblər.

Müdafiə Nazirliyi əməkdaşlarımızı təltif edib

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Azərbaycan Tibb Universitetinin Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının əməkdaşlarını Zəfər Günü münasibəti ilə təltif edib. Belə ki, Vətən müharibəsi dövründəki xidmətlərə görə Fəxri fərman və mükafatlar təqdim olunub.

Vətən müharibəsinin ilk günlərindən "Azərbaycan Ağız və Üz-çənə Cərrahları Cəmiyyəti" yaralanan əsgər və zabitlərimizə ixtisaslaşmış tibbi yardım göstərməyə hazır olduğunu Səhiyyə Nazirliyinə bildirmişdi. 2020-ci il oktyabrın 2-dən etibarən ATU-nun Tədris Cərrahiyyə Klinikasında ilk olaraq Üz-çənə cərrahiyyəsi şöbəsi, daha sonra klinikanın digər şöbələri hərbi əməliyyatlarda yaralanan hərbçilərimizə xidmət göstərməyə başlamışdı. Klinikanın bütün tibb personalı öz bilik, bacarıq və təcrübəsini bu işə sərf edərək 100-dən çox yaralıya yardım göstərmişdi. Bu gün də qazilərimizlə bağlı ən mürəkkəb bərpa əməliyyatlarının aparılması məhz bu klinikanın mütəxəssislərinə həvalə olunur.

Zəfər Gününün 2-ci ildönümündə Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının əməkdaşları və şöbənin orta tibb personalına "Azərbaycan Ordusunun tibb xidmətinə verdiyi töhfələrə görə" Fəxri Fərmanı və xüsusi hazırlanmış "Dəmir yumruq" simvolu təqdim edilib.

ATU-nun əməkdaşı Türkiyədə dərs keçib

Azərbaycan Tibb Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri, Patoloji anatomiya kafedrasının müdir müavini, dosent Müşfiq Orucov Türkiyənin Ömer Halisdemir Universitetinin (NÖHÜ) Tibb fakültəsinin Tibbi patologiya kafedrasında iki həftə müddətində dərs keçib. Səfər Türk Dövlətləri Təşkilatı Türk Universitetləri Birliyinin "Orhun mübadilə proqramı" çərçivəsində reallaşıb.

Səfər ərzində dosent M.Orucov NÖHÜ-nün rektoru, professor Hasan Uslunun Tibb fakültəsinin professor-müəllim heyəti ilə illik görüşündə iştirak edib, fakültənin dekanı, professor Üner Kayabaş və universitetin Beynəlxalq əlaqələr şöbəsinin müdiri dr. Hülya Üründü ilə görüşlər keçirib. Görüşlər zamanı iki universitet arasında əməkdaşlığın perspektivləri, Türkiyədə tibb təhsilinin metodoloji əsasları və s. məsələlər barəsində fikir mübadiləsi aparılıb.

ATU-da akkreditasiya prosesinə dair beynəlxalq seminar keçirilib

Professor Gəray Gəraybəyli: Müasir tədris prosesinin uğurlu olmasında müstəqil ekspert rəyi çox önəmlidir

Azərbaycan Tibb Universitetində Akkreditasiya və Reytinq üzrə Müstəqil Agentliyin (Independent Agency For Accreditation and Rating - IAAR) təşkilatçılığı ilə "Beynəlxalq akkreditasiya – təhsilin keyfiyyətinin artırılması aləti" mövzusunda beynəlxalq seminar keçirilib. Tədbirdə Azərbaycanın bir sıra universitetlərinin rektorları və rəhbər şəxsləri, təhsil üzrə beynəlxalq ekspertlər, müəllimlər iştirak ediblər.

Giriş sözü ilə çıxış edən ATU-nun rektoru, professor Gəray Gəraybəyli pedaqoji prosesin daim inkişafda olduğunu bildirərək, təhsildə innovasiya və yeni texnologiyaların tətbiqinin vacibliyini vurğulayıb: "Azərbaycan universitetləri dünya bazarında rəqabətə davamlı kadrlar yetişdirilməsi uğrunda daim inkişaf prosesindədirlər. Lakin bu prosesin uğurlu nəticələnməsi üçün kənardan müstəqil ekspert rəyi, müstəqil baxışın olması çox önəmlidir. Məhz bu səbəbdən Azərbaycan Tibb Universiteti olaraq dünya miqyaslı reytinq strukturları tərəfindən tanınan Akkreditasiya və Reytinq üzrə Müstəqil Agentliyi seçdik".

Professor G.Gəraybəyli üç ildən çox davam edən hazırlıq mərhələsi, beynəlxalq akkreditasiya prosesinin gedişi haqqında seminar iştirakçılarına ətraflı məlumat verib. Qeyd edib ki, onlayn rejimdə aparılan işlərdən sonra ötən ilin noyabrında IAAR ekspertləri Bakıya səfər edərək ATU-da vəziyyəti qiymətləndiriblər. Müəllim və tələbələr arasında geniş sorğular keçirilib, təhsil proqramlarının icrası, dekanlıqların fəaliyyəti, kliniki bazaların, struktur vahidlərinin və s. işinin beynəlxalq standartlara uyğunluğu dəyərləndirilib: "Gərgin işin nəticəsində ATU-nun üç əsas ixtisas üzrə tədris proqramı beynəlxalq akkreditasiyadan uğurla keçdi. Bu, bizim üçün irəliyə doğru böyük bir addım oldu. Bizi universitetdə indiyədək görülmüş və hazırda aparılan işlərə yenidən, fərqli şəkildə baxmağa məcbur etdi".

Rektor qeyd edib ki, ali məktəblər üçün təhsilin keyfiyyətinin artırılması, beynəlxalq nüfuzun yüksəldilməsi, yeni bacarıqların əldə edilməsi baxımından beynəlxalq akkreditasiya prosesi böyük önəm daşıyır. O, Azərbaycanın digər ali məktəblərinin də IAAR agentliyinə müraciət etməsini alqışlayaraq, onlara bu çətin yolda uğurlar arzulayıb.

IAAR-ın baş direktoru Alina Jumaqulova bildirib ki, tədbirin ATU-nun bazasında keçirilməsi təsadüfi deyil. Çünki Azərbaycanın səhiyyə sahəsində ilk dəfə olaraq məhz Tibb Universitetinin üç ixtisas üzrə tədris proqramı uğurla akkreditasiyadan keçib. Qlobal reallıqlar fonunda beynəlxalq akkreditasiyanın önəmindən danışan A.Jumaqulova təhsildə keyfiyyətin yüksəldilməsi istiqamətində IAAR agentlinin təqdim etdiyi imkanlardan söz açıb. Qeyd edib ki, akkreditasiya istənilən universitet üçün xarici tələblərin qəbulu və xarici ölkələrdə diplomların tanınması baxımından əhəmiyyətli addım olmaqla yanaşı, həm də ali məktəblərin beynəlxalq aləmə inteqrasiyasına töhfə verir.

Daha sonra Agentliyin təmsilçiləri təhsilin keyfiyyətinin artırılması üçün istifadə olunan mexanizmlər, kənar ekspert rəyinin hazırlanmasındakı meyarlar və digər mövzularda təqdimatlarla çıxış ediblər. Sonda akkreditasiya prosesi barədə suallar cavablandırılıb.

ATU-nun kafedra müdiri beynəlxalq konfransda

Oktyabrın 24-25-də Azərbaycan Tibb Universitetinin İnsan anatomiyası və tibbi terminologiya kafedrasının müdiri, dosent Anar Abdullayev Türkiyənin Elm və Sağlıq Dərnəyinin dəvəti ilə İstanbulun Bahçeşehir Universitetində baş tutmuş nəzəri-praktik elmi konfransda iştirak edib.

A.Abdullayev Türkiyə, Qazaxıstan və Moldovadan konfransa qatılmış mütəxəssislər qarşısında "Üzün inkişafı. Üz əzələlərinin formalaşması" mövzusunda məruzə ilə çıxış edib, iştirakçıların çoxsaylı suallarını cavablandırıb. Qeyd edilməlidir ki, üzün anatomiyasına maraq bütün dövrlərdə mövcud olsa da, müasir zamanda plastik və rekonstruktiv cərrahiyyənin, kosmetik əməliyyatların artması bu sahəyə diqqətin daha da güclənməsinə səbəb olub. Bu cür tədbirlər də məhz həmin məqsədə xidmət edir.

Dünya şöhrətli anatomlar, professor Gürsel Ortuğ və professor doktor Çağatay Barutla görüşdə Azərbaycan və Türkiyə anatomlarının birgə fəaliyyətinin yeni aspektlərinə də toxunulub.

I Cərrahi xəstəliklər kafedrasının əməkdaşı Özbəkistanda öz təcrübəsini bölüşüb

Bu günlərdə Daşkənd şəhərində Özbəkistan Bariatrik Metabolik Cərrahlar Dərnəyinin ilk beynəlxalq konfransı keçirilib. Toplantıda Azərbaycan Tibb Universitetinin I Cərrahi xəstəliklər kafedrasının əməkdaşı, tanınmış cərrah, tibb üzrə fəlsəfə doktoru Taryel Ömərov iştirak edib.

Doktor T.Ömərov konfransda "Mədənin boylama rezeksiyası əməliyyatının standartları" mövzusunda çıxış edib, bu sahədəki nailiyyətlərini tədbir iştirakçıları ilə bölüşüb. Həkim müəllifi olduğu, indiyədək müxtəlif beynəlxalq patentlər almış "Aşırı piylənməsi olan xəstələrdə bariatrik-metabolik cərrahi müalicənin optimallaşdırılması" metodu ilə bağlı iştirakçıları məlumatlandırıb. Həm çıxışında, həm də yerli mediaya müsahibələrində T.Ömərov Azərbaycanda bariatrik-metabolik cərrahiyyə sahəsində son 10 ildə görülən işlər, əldə olunan nailiyyətlər barədə ətraflı məlumat verib.

ATU-nun əməkdaşı beynəlxalq konfransın iki elmi panelində Braziliya, Türkiyə, ABŞ, Rusiyadan olan cərrahlar və professorlarla yanaşı moderator qismində çıxış edib. O, həmçinin konfransın canlı əməliyyat panelində moderator kimi təmsil olunub.

Lənkəranda şəhid ailəsi üzvləri və qazilər müayinə olunub

Azərbaycan Könüllü Həkimlər Assosiasiyası (AKHA), "Regional İnkişaf" İctimai Birliyi (RİİB) və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) birgə təşkilatçılığı ilə şəhid ailələrinin üzvləri və qazilər üçün növbəti tibbi aksiya oktyabrın 29-da Lənkəran rayonunda təşkil olunub.

Rayonun Mərkəzi Xəstəxanasında həyata keçirilən aksiya Lənkəran, Lerik və Astarada yaşayan, həssas kateqoriyalara aid olan 300-ə yaxın vətəndaşı əhatə edib. Müayinələr paytaxtın müxtəlif dövlət və özəl xəstəxanalarında çalışan kardioloq, onkoloq, radioloq, terapevt, pediatr, nevroloq, uroloq və digər ixtisaslı könüllü həkim heyəti tərəfindən aparılıb. Nəticələrə əsasən xəstəlik aşkar edilən vətəndaşlara müvafiq müalicə kursları təyin olunub, onlar zəruri dərman vasitələri ilə təmin ediliblər.

Aksiyada Azərbaycan Tibb Universitetinin həkim-mütəxəssisləri də yaxından iştirak edib. Həkimlərimizdən AKHA-nın sədri, üz-çənə cərrahı Oktay Mehtiyev, ümumi cərrah Elman Tağıyev, II Müalicə-profilaktika fakültəsinin dekan müavini, terapevt-kardioloq Arzu Bəydəmirova, ginekoloqlardan Pərvanə Əliyeva və Nüşabə Əlişova fəallıqları ilə seçiliblər. Rezidentlərimizdən Nərmin Əhmədova, Fidan Qarayeva, Könül Rzayeva, tələbələrimizdən Nihad Novruzov, Xəlil Yusuf, Raul Davıdov, İlkin Alıyev, Nərmin Əliyeva, Gülgün Hacıyeva, Mələkxanım Əliyeva, Esra Yılmaz, Fəhmin Cavadzadə, Mizgin Babat, Uğur Altürk, Nevruz Budak, Ünal Muhammed Yarıcı, Amjed Obaid Ahmed, Rujdar Dal, Gülər Pirizadə, Xoşqədəm Şirinli, Lalə Mədətova, Yasəmən Nuri, Abdullah Yarıcı, Nurettin Kayaalp da aksiyaya qatılıb, xəstələrin müayinə olunmasında yaxından iştirak ediblər.

Qeyd edək ki, A.Bəydəmirova tələbələrlə birgə 70-dən çox kardioloji xəstəni müayinə edərək diaqnoz qoyub, onlara lazımi həkim məsləhətlərini verib.

Layihə çərçivəsində sağlamlıq vəziyyəti ağır olan şəxslərin ixtisaslaşmış tibb müəssisələrində müayinədən keçməsi üçün Bakı şəhərinə gətirilməsi və cərrahi əməliyyatlara ehtiyacı olanların əməliyyat edilməsinə dəstək də nəzərdə tutulub.

"Zəfər səsi" filmi nümayiş olunub

ATU Tələbə Həmkarlar İttifaqı Komitəsi tərəfindən milli vətənpərvərlik ruhunda çəkilmiş və 8 Noyabr - Zəfər Gününə həsr edilmiş "Zəfər səsi" filmi nümayiş olunub.

Tədbirin açılışında ATU-nun rektoru, professor Gəray Gəraybəylinin adından tələbələri salamlayan THİK sədri Qoşqar İsmayılov bu günün önəmindən bəhs edib və tələbələrin qələbə əhval-ruhiyyəsini yüksək qiymətləndirib. Q.İsmayılov bu günü bizə bəxş edən cənab Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevə, müharibə veteranlarına, qazilərə və şəhidlərə borclu olduğumuzu bildirib. O, Vətən uğrunda şəhid olan əsgər və zabitlərimizə Allahdan rəhmət diləyib.

Sonra şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

"Təbib" idman klubunun müdiri Qələndər Aslanov dövlət bayrağımızı daim zirvələrdə tutmağın hər birimizin borcu olduğunu vurğulayıb.

Daha sonra dövlət himni səsləndirilib və film nümayiş olunub. Filmi maraqla izləyən tələbələr onu yüksək qiymətləndirdiklərini bildiriblər.

ATU THİK tələbələri bu tip tədbirlərdə aktiv iştirak etməyə çağırır.

Noyabrın 2-də ATU-nun İctimai fənlər kafedrasında Zəfər Günü ilə bağlı Tələbə Elmi Cəmiyyətinin geniş konfransı keçirilib. Kafedranın müdiri, professor Qoşqar Əliyev tədbirdə giriş nitqi ilə çıxış edib.

Tarixi ədalətin bərpa olunduğu Zəfər Günü

İctimai fənlər kafedrasında qələbəmizin ildönümü ilə bağlı geniş konfrans keçirilib

Kafedra müdiri bildirib ki, 90-cı illərin əvvəllərində xalqımızın başına namərd qonşularımız tərəfindən gətirilən müsibətlər, ərazilərimizin işğal olunması hər birimizin qəlbini daim alovlandırırdı: "Xalqın tələbi ilə ölkə rəhbərliyinə gələn ümummilli lider Heydər Əliyev keçmiş iqtidarın sərişdəsiz fəaliyyəti nəticəsində yığılmış problemlərlə qarşılaşsa da, böyük səylərlə onları aradan qaldırmağa nail oldu. 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilmiş İlham Əliyev ata vəsiyyətini – ümummilli liderin "inanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram" – sözlərini doğruldaraq, ölkəmizin inkişafı yolunda gecə-gündüz çalışmağa başladı. Nəhayət, 2020-ci ilin bu günlərində Müzəffər Ali Baş komandanın rəhbərliyi ilə Azərbaycan ordusu torpaqlarımızı düşmən caynağından azad etdi".

ATU-nun Elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması istiqamətində belə tədbirlərin keçirilməsinin xüsusi əhəmiyyət daşıdığını vurğulayıb. Bildirib ki, 44 günlük Vətən müharibəsində Azərbaycanın öz haqqı uğrunda mübarizə aparmağa qadir güclü bir dövlət olduğu bütün dünyaya göstərildi.

Əczaçılıq fakültəsinin dekanı, dosent Fərəh Mədətli bildirib ki, xalqımız bu qələbənin əldə edilməsi yolunda həm Ali Baş Komandanın rəşadətindən ilhamlandı, həm də tarixi kökləri üzərində boy verib ucalan igidliklərə imza atdı: "Qələbənin əldə edilməsində ən vacib məqam xalqımızın tarixi ədaləti bərpa etmək, azğın düşməni işğal edilmiş ərazilərdən qovmaq məqsədi idi. Bunu da birlikdə bacardıq və indi dünyada başıucayıq. Qələbəmizin ana sütununu xalq-iqtidar birliyi təşkil etdi. Bu 44 günlük müharibə xalqımızın hərb tarixində bərabəri olmayan bir hadisədir".

Tədbirdə çıxış edən Vətən müharibəsi qazisi, polkovnik-leytenant Dəyanət Məmmədov vurğulayıb ki, möhtəşəm qələbənin iki illiyini qeyd edən xalqımız alnıaçıqdır: "Bu gün hər bir insanımız fərəh və qürur hissi keçirir. Erməni mifini birdəfəlik aradan qaldıran qəhrəman Azərbaycan ordusu sərhədlərin müəyyən edilməsi işi ilə məşğuldur. Xalqımız ölkə rəhbərliyinin diqqət və qayğısı ilə azad olunmuş ərazilərdə quruculuq işlərinə başlayıb".

Sonra söz məruzəçi tələbələrə verilib. Leyla Ağabəyli "Tarixi qələbəmiz", Fatimə Rəsulova "Göz yaşı içində gülüş - Zəfər Günümüz", Saçlı Cəfərova "Qəhrəmanlıqla taclanan Zəfər bayramı", Aytən Namazlı "44 günlük müharibə - Dəmir yumruq", Elmir Mirzəyev "2-ci Qarabağ müharibəsi: Şanlı Zəfər tariximiz", Rəsul Bünyatov "Görünməyən qəhrəmanlar - Ağxalatlılar" və Ofelya Məmmədova "2020-ci ilin 8 noyabrı Zəfər Günümüzdür" mövzularında çıxışlar ediblər.

Toplantıda məruzəçi tələbələrin elmi rəhbərləri, eləcə də Vətən müharibəsinin qaziləri – gizirlər Amil Əbilov və İlqar Cəbrayılov da iştirak edirdilər.

Tanınmış əcnəbi professorlar ATU-da çıxış edib

Bu günlərdə Azərbaycan Tibb Universitetinin Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrasında konfrans keçirilib. Kafedra müdiri, professor Məhbubə Vəliyevanın təqdimatı ilə Atatürk Universitetinin professoru Abdulmecit Albayrak, Təbriz Tibb Elmləri Universitetinin əczaçılıq üzrə professoru Əziz İftexari tədbirdə çıxış ediblər.

Kafedranın əməkdaşları üçün keçirilən konfransda tanınmış professorlar iştirakçıları əczaçılıq sahəsində qazandıqları təcrübələrlə tanış edib, tədqiqatın aparılma üsullarından söhbət açıblar. Alimlərin çıxışları yerli mütəxəssislər tərəfindən maraqla qarşılanıb, suallar cavablandırılıb.

Onu da qeyd edək ki, Əziz İftexari Təbriz Tibb Elmləri Universitetinin və Madrid Artuklu Universitetinin elmi üzvüdür. O, Marageh Tibb Elmləri Universitetinin və "Eurotoks 2020"nin ən yaxşı tədqiqatçısı seçilib. Bir sıra milli və beynəlxalq mükafatlara layiq görülüb. Təbriz Tibb Elmləri Universitetində İnnovasiya Mərkəzinin direktor müavinidir.

Allerqoloq və immunoloqların VI Milli Beynəlxalq Konqresi keçirilib

Noyabrın 4-də Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında Allerqoloq, İmmunoloq və İmmunoreabilitoloqlar Elmi Cəmiyyətinin VI Milli Beynəlxalq Konqresi keçirilib.

Konqresi giriş sözü ilə açan universitetin elmi işləri üzrə prorektoru, dosent Rauf Bəylərov toplantı iştirakçılarına, eləcə də xarici ölkələrdən konqresə qatılan mütəxəssislərə ATU-nun rektoru, professor Gəray Gəraybəylinin salamlarını çatdırıb və konqresin təşkilində əməyi keçən hər kəsə təşəkkürünü bildirib.

Bu sahədə keçirilən konqresin çox böyük əhəmiyyət daşıdığını söyləyən Rauf Bəylərov bildirib ki, allergiya ölkəmizdə və dünyada ən geniş yayılmış xəstəliklər sırasına daxildir. Orqanizmdə baş verən hər hansı bir xəstəlik mümkündür ki, gələcəkdə immun sisteminin təhrif olunmuş reaksiyası kimi özünə büruzə versin. Ona görə də hər bir allerqoloq bilməlidir ki, ilk növbədə immun sisteminin təhrif olunmuş reaksiyası hansı hallar üçün xarakterikdir.

Prorektor vurğulayıb ki, belə elmi konqreslərin keçirilməsində də əsas məqsəd insanların bu xəstəliklə bağlı maarifləndirilməsi və onlara lazımi məlumatların çatdırılmasıdır. Bu konqresin ərsəyə gəlməsində professor Amaliya Əyyubovanın çox böyük zəhməti olduğunu qeyd edən prorektor konqresin işinə uğurlar diləyib.

Konqresə qatılan Ümumdünya İmmunpatologiya Təşkilatının prezidenti, MDB ölkələrinin Allerqoloq və immunoloq şurasının prezidenti, İmmunofiziologiya İnstitutunun (Moskva) direktoru, akademik Revaz Sepiaşvili çıxış edərək bu konqresin Azərbaycanda keçirilməsinin təqdirəlayiq hal olduğunu diqqətə çatdırıb.

Azərbaycan Allerqoloq, İmmunoloq və İmmunoreabilitoloqlar Elmi Cəmiyyətinin prezidenti, MDB ölkələrinin Allerqoloq və kliniki immonoloqlar şurasının vitse-prezidenti, professor Amaliya Əyyubova konqres iştirakçılarını salamlayaraq həmkarları ilə bir arada olmaqdan məmnunluğunu bildirib. O, konqresin keçirilməsinə yaradılan şəraitə üçün universitet rəhbərliyinə təşəkkür edib. Son zamanlar gördükləri işlərlə konqres iştirakçılarını tanış edən professor A.Əyyubova bu sahədəki yeniliklər haqqında məlumat verib.

Daha sonra bu sahə üzrə tanınmış mütəxəssislərdən professor Yelena Şarikadze, assistent Sergey Yurev, professorlar Lalə Allahverdiyeva, Sahib Musayev və başqaları allergiyanın inkişafında risk faktorlarının rolundan və eləcə də allergik xəstəliklərin klinik təzahürlərində iltihabın təsiri mövzularından bəhs ediblər.

Şəhid məzunlarımız

Vətən uğrunda Azərbaycan Bayrağını ucaldan həkim

Müharibədə neçə-neçə hərbçimizin həyatını xilas edən Aqşin Ənvərli indi xatirələrdə yaşayır

Şəhid Hərbi həkim Baş leytenant Ənvərli Aqşin Faiq oğlu

O, əsl qəhrəman idi. Döyüş meydanında təkcə həkim kimi deyil, həm də cəngavər kimi döyüşürdü. Yaralılara tibbi yardım göstərən zaman özünün də yaralanmasına baxmayaraq, döyüş meydanından uzaqlaşmırdı. Bütün varlığı ilə qələbəyə doğru addımlayırdı, tibb xidməti baş leytenantı Aqşin Ənvərli. Torpaqlarımız düşmən tapdağından azad olunduqca, qələbənin yaxınlaşdığını bütün varlığı ilə hiss edirdi. Amma çox təəssüf ki, Qələbəmizi görə bilmədi. Noyabrın 6-da Xocavənddə gedən döyüşlər zamanı qəhrəmancasına həlak oldu...

"Gələcəkdə onun yaxşı rəssam olacağını düşünürdüm"

Atası Faiq Abdullayev:

- Aqşin Qəbələ şəhər 4 saylı tam orta məktəbində oxuyub. 2012-ci ildə orta məktəbi əla qiymətlərlə bitirib. 2005-2009-cu illərdə Qəbələ rayonu Uşaq İncəsənət Məktəbində rəssamlıq şöbəsində oxuyub. Gözəl rəsm əsərləri çəkirdi. Oxuduğu müddətdə dəfələrlə rayon və respublika üzrə rəssamlıq müsabiqələrində iştirak edib, çəkdiyi əsərlər 1-2-ci yerləri tutub, fəxri fərmanlara, diplomlara layiq görülüb. Həmin əsərlər Mədəniyyət Nazirliyinin kataloqlarına salınıb. Aqşinin müraciət etdiyi mövzular da rəngarəng idi. Təbiət, bayramlarımızın təsviri üstünlük təşkil edirdi. Rəssamlığa olan həvəsindən elə bilirdim ki, rəssam olacaq. Amma 9-cu sinifdə oxuyanda məlum oldu ki, həkim peşəsini seçib. Fikrindən daşındırmaq istəsəm də, israrını görüb onunla razılaşmalı oldum.

Təvazökarlıqdan uzaq olsa da, deməliyəm ki, mən çox vətənpərvərəm. 30 ildir ki, evimizdə Azərbaycanın Bayrağı, Gerbi, Bütöv Azərbaycanın xəritəsi asılıb. Övladlarımla həmişə vətənpərvərlik mövzusunda söhbətlər etmişəm. Onlar həmişə məni diqqətlə dinləyib, vətənpərvərlik ruhunda böyüyüblər.

Aqşin həmişə dediyi sözün üstündə durar, özünü tərifləməyi xoşlamazdı. Onun uğurlarını yalnız dost-tanışlarından, tələbə yoldaşlarından eşidərdik. Narahat olmayaq deyə, problemlərini həmişə bizdən gizlədərdi. Müharibə vaxtı onunla danışanda heç vaxt şikayətlənməzdi. Yaralı olsa da, sonadək bunu bizdən gizlətmişdi.

Yaşadığımız binanın önündə Aqşinin xatirəsinə bulaq inşa edilib, barelyefi qoyulub, büstü hazırlanıb. Qəbələnin mərkəzi küçələrindən birinə onun adı verilib.

"Özü yaralı olsa da, yaralı əsgərlərə yardım edib"

Anası Dilrubə Səmədova:

- Aqşin mənim sonbeşiyim idi. Digər övladlarımdan xeyli müddət sonra anadan olmuşdu. Onu dünyaya gələndən universitetə daxil olanadək bir an belə gözümdən aralı qoymamışam. Məktəbdə əlaçıydı. Çox ağıllı və zəkalı uşaq idi. Davranışından, oxumasından müəllimlər razılıq edirdi.

Bir dəfə qonşuluqda mövludla əlaqədar mərasim təşkil olunmuşdu. Ora məni də dəvət etmişdilər. Aqşinin onda 7 yaşı vardı, onu da özümlə apardım. Quran oxuyan xanım onu görən kimi yanında əyləşdirdi, o da çox sakit şəkildə qulaq asmağa başladı. Xanım məclisin sonunda dedi ki, oğlunuz qeyri-adi, imanlı uşaqdır. Şəhid olandan sonra bildik ki, istər tələbəlik dövründə, istərsə də həkim işlədiyi vaxtlarda özünə xeyli xətir-hörmət qazanıb, çoxlu dostları olub.

Aqşin universitetə daxil olanda çox sevindim. Elə bilirdim ki, dünyalar mənimdir. Çünki nəslimizdə ona qədər həkim olmamışdı. Universiteti bitirəndən sonra Naxçıvanda xüsusi təyinatlı hərbi hissədə tibb xidməti rəisi işləyib. Xidməti və hansı vəzifəni daşıdığı barədə bizə heç bir məlumat verməmişdi. Biz bu barədə şəhid olandan sonra bilmişik.

Dostları, hərbçi yoldaşları həmişə onun haqqında xoş sözlər danışırdılar. Müharibə vaxtı xeyli yaralının həyatını xilas edib. Aqşindən noyabrın 6-dan sonra zəng gəlmədi. Həmişə zəng edəndə deyərdi ki, yaralılara tibbi yardım edir. Mən də elə təsəvvür edirdim ki, yəqin hospitaldadır. Ona görə Aqşinə nəsə olacağını ağlıma belə gətirmirdim. Yəni Aqşinsiz dünyamı təsəvvür edə bilmirdim. Fikirləşirdim ki, ona bir şey olsa, dəli olaram. Amma şəhid xəbəri gələndə, hansısa bir qüvvə məndə səbr yaratdı.

İstəyirəm ki, bundan sonrakı ömrümü Aqşinə layiq ana kimi yaşayım. Oğlum şəhid olmamışdan qabaq yaralanıbmış. Əslində, hospitala gəlməliymiş. Amma yenə də döyüş meydanından çıxmayıb, son nəfəsinədək yaralılara tibbi yardım göstərib. Bizimlə telefonla danışanda isə həmişə "yaxşıyam" deyirdi. Mən arada ağrıyanda, utanıram bu barədə kiməsə deyim. O saat gözlərimin önünə Aqşin gəlir ki, o, yaralı da oldu, amma heç zaman kimsəyə şikayətlənmədi...

Həkim peşəsini vicdanla yerinə yetirdiyinə, fədakarlığına, tapşırıqları qüsursuz icra etdiyinə görə, döyüşlər zamanı hərbi rütbəsi artırılmışdı, baş leytenant olmuşdu.

"Vətənin yaralarını sarıyan bir həkim, bir hərbçi itirmişəm"

İbtidai sinif müəllimi Aybəniz Həsənova:

- Aqşin uşaq yaşlarından qürurlu idi. Haqsızlıqla heç zaman barışmırdı. Haqqını tələb edəndə gözləri alışıb, yanardı. Tədbirlərimizdə fəal iştirak edər, "Azərbaycan" sözünü fərqli tələffüz edərdi. Onun bu tələffüzü çox xoşuma gəlirdi. Dərs keçdiyim 4 il ərzində onda heç bir nöqsana rast gəlmədim.

Yuxarı siniflərdə oxuyanda da müəllimlər onun haqqında ağızdolusu danışır, razılıq edirdilər. Ali məktəbə daxil olduğunu eşidib çox sevinmişdim. Heç ağlıma gəlməzdi ki, bu gün Aqşinin xatirəyə çevrilmiş ömrünü vərəqləyəcəyəm. Onun gözəl bir xüsusiyyəti var idi, vətənpərvərliyə aid şeirləri çox sevər, tez əzbərləyərdi.

Vətənin yaralarını sarıyan, Vətənə yönəlmiş güllələrə sinəsini sipər edən bir həkim, bir hərbçi itirmişəm. İstəkli və sevimli şagirdini itirmiş bir şəhid müəllimiyəm. Onun sənəti ilə qürurlanmaq istəyirdim. Lakin şəhidliyi ilə qürurlanıram. Aqşinin ölümü ilə heç barışmadım. Onun haqqında danışanda göz yaşlarıma hakim ola bilmirəm. Bir şagirdim göylərə yüksəldi, mən onu ancaq zirvədə görürəm. Dərs dediyim şagirdlərin qəlbində ona abidə yaratmaqla təskinlik tapıram. Nur üzlü Aqşin ölməyib, əbədi qəlblərə köçüb!

"Şəhid olandan sonra yazdığı məktub əlimizə keçdi..."

Bacısı İlahə:

- Müharibəyə getməmişdən öncə hərbi həkim Turqut Xəlilbəylinin şəhid xəbərini eşidib, xeyli sarsıntı keçirmişdi. Turqutla universitetdə oxuduğu zaman yataqxanada bir otaqda qalmışdılar. Qardaşım Vətənimizi çox sevirdi. Çünki biz gözümüzü açandan vətənpərvər bir ailədə böyümüşük. Ailəmizdə həmişə Vətənimizə, millətimizə, torpağımıza, dövlətimizə və dövlət atributlarımıza xüsusi hörmət və sevgi olub. Aqşin torpaqlarımızın işğalına heç cür dözə bilmirdi. Vətənimizin dar günündə onun müdafiəsinə qalxdı və qəhrəmanlıq göstərərək şəhidlik zirvəsinə ucaldı. Şəhid olandan sonra onun 14 yaşında yazdığı bir məktubu əlimizə keçdi. Onun Allaha və dinə nə qədər bağlığı olduğu yazdığı məktubda öz əksini tapmışdı. Aqşinin vətənə olan sevgisi onda hərbi həkim olmaq istəyi yaratmışdı.

Bir əlində avtomat, o biri əlində tibb çantası olub

Polkovnik Etibar Məhərrəmov:

- Aqşin həkim kimi xidmətə başlayanda mən həmin hərbi hissədə komandir idim. Sonra xidmətlə əlaqədar yerimi dəyişdilər. Aqşin çox nizam-intizamlı, öz işinə məsuliyyətlə yanaşan bir həkim idi. Vəzifəsini yüksək səviyyədə yerinə yetirirdi. Mədəniyyəti, bacarıq və qabiliyyətinə görə komandirləri arasında böyük hörmət qazanmışdı.

Müharibə vaxtı onu Cəbrayılda gördüm. Döyüş tapşırığı almışdıq. Hazırlıq işləri gedirdi. Aqşin də öz növbəsində tibbi çantaları yoxlayır, hərbi sarğı paketlərini şəxsi heyətə paylayırdı. Sonra biz aralandıq. Füzuli rayonunun Dilağarda kəndi azad olunanda, Aqşini avtomat əlində, tibb çantası kürəyində gördüm. Dedim ki, həkim, sən də həm çantanla, həm də silahınla döyüşürsən. Orada iki hərbçimiz ağır yaralanmışdı. Ətrafımıza mərmilərin düşməsinə baxmayaraq, onların yaralarını sərbəst, soyuqqanlı şəkildə sarıyırdı. Əsl hərbçi və həkim kimi özünü çox təmkinli aparırdı. Üst-başı qanın içindəydi.



Xocavəndə döyüş tapşırığını yerinə yetirən zaman da Aqşin bizimlə oldu. Bildik ki, həkim yaralanıb. Ona öz göstərişi ilə tibbi yardım göstərilmişdi. Noyabrın 6-da isə yerdəyişmə edən zaman düşmən kütləvi atəş həyata keçirdi. Aqşin qəhrəmancasına şəhid oldu.

Aqşinin sayəsində nə qədər yaralı sağaldı, həyata qayıtdı. Mən müharibə bitəndən sonra onun xilas etdiyi bir neçə hərbçiylə görüşdüm. Aqşini böyük ehtiramla yad etdik.

"Müharibədən sonra istədiyi qıza elçi getməyimizi istəyirdi"

Qardaşı Rəşad:

- Onun şəhid olması xəbərini alan zaman keçirdiyimiz hissləri sözlə ifadə etmək olduqca çətindir. Bu xəbərə heç cür inanmaq istəmirdik. Aqşinin müharibədə göstərdiyi qəhrəmanlıqla həmişə qürurlanırıq, qürurlanacağıq da. O bir qəhrəmandır və həmişə qəlbimizdə yaşayacaq.

İstəyirdik ki, müharibədən sağ-salamat qayıtsın. Onunla bir az vaxt keçirək, qulluğunda duraq. Bir ildən artıq idi ki, üzünü görmürdük. Karantin vaxtına düşdü deyə məzuniyyətə gələ bilməmişdi. Bacıma telefonda demişdi ki, ata-anama deyərsən, mən müharibədən qayıtdıqdan sonra istədiyim qıza elçi gedərlər. Çox istəyirdi ki, istədiyi qızla evlənsin, ona toy edək. Qismət olmadı. Çox təəssüf ki, öz arzuları, bizim də onunla bağlı xeyli istəklərimiz yarımçıq qaldı...

Aqşin Ənvərli Vətən qarşısında xidmətlərinə görə ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", Xocavənd və Füzulinin azad olunmasına görə medalları ilə təltif olunub. Qəbələ şəhər qəbiristanlığında dəfn olunan qəhrəmanımızın xatirəsi xalqımızın qəlbində həmişə yaşayacaq.

Qabil ZİMİSTANOĞLU

«Elimizə bahar gəlir»
Ənvərli Aqşin - 15 yaş
Qəbələ rayonu
Uşaq İncəsənət Məktəbi

Düzgün diaqnoz müalicənin əsasını təşkil edir

Noyabrın 8-i Beynəlxalq Radioloqlar Günüdür

Rentgen şüaları 1895-ci il noyabrın 8-də alman fiziki Vilhelm Rentgen tərəfindən kəşf olunub. Bu münasibətlə dünya radioloqları hər il noyabrın 8-ni Beynəlxalq Radioloqlar Günü kimi qeyd edirlər. Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının Radiologiya şöbəsi də hər il həmin günlə əlaqədar müxtəlif tədbirlər keçirir.

ATU-nun Şüa diaqnostikası və terapiyası kafedrasının müdiri, tibb elmləri doktoru, professor Məlahət Sultanovanın bildirdiyinə görə, Radiologiya şöbəsində günün tələblərinə uyğun olaraq, Maqnit Rezonans Tomoqrafiya (MRT), Kompüter Tomoqrafiya (KT), rəqəmsal rentgen, ultrasəs müayinələri aparılır: "Şöbəmizdə işləyən mütəxəssislər ölkəmizdə kifayət qədər sözünü demiş, ixtisaslaşmış radioloqlardır. Müxtəlif patologiyalarla xəstələr klinikamıza müraciət edirlər. Onlar arasında elələri olur ki, təcili diaqnoz qoymaq lazım gəlir. Bizim cavabımızdan müalicə həkiminin verəcəyi qərar asılı olur. Biz də çalışırıq ki, diaqnozumuzda heç bir yanlışlığa yol verməyək. Alqoritmlərimizi düzgün quraq

bilək və ardıcıllıq düzgün aparılsın. Müayinə üsullarını, müayinə metodlarını dünyada qəbul olunmuş protokollara əsasən tətbiq edirik. Bu baxımdan, xəstəni bizə yönəldən müalicə həkiminin göndərişindən də çox asılıdır. Ona görə yaxşı olar ki, bu gün qəbul olunmuş şüa-diaqnostik müayinə protokolları ilə həkimlərimiz yaxından tanış olsunlar ki, hansı halda hansı müayinənin effektiv olması qərarı düzgün verilsin".

Bəzən insanların təkidi ilə lazımsız müayinələrin aparıldığını deyən müsahibimiz, qərar vermək lazım gələndə həkim məsləhətlərini əsas götürməyi tövsiyə etdi. Bildirdi ki, pandemiyanın ilk dönəmlərində bir çox insanlar test pozitiv çıxan kimi, gərəksiz yerə Kompüter Tomoqrafiya müayinəsindən keçirdilər: "Bu, tamamilə yolverilməz bir hal idi. Mən bir radioloq olaraq insanları bundan çəkindirirdim. Təsəvvür edin, təkcə döş qəfəsinin KT-si zamanı alınan şüa yükü orta hesabla 3 ildə aldığımız təbii şüalanma yükünə bərabərdir. Ona görə də bu müayinədən vaxtında, düzgün, səmərəli istifadə etmək lazımdır. KT müayinə üsulunu xüsusən onkoloji xəstəliklərin diaqnostikasında, differensial diaqnostika apara bilmədiyimiz hallarda və ya travmaların müayinəsində tətbiq etmək olar".

Mütəxəssis, eyni zamanda praktikasında qarşılaşdığı maraqlı klinik hadisələrdən də söhbət açdı: "Müayinəyə 8 aylıq bir körpə gətirmişdilər. Ağciyərini müayinə edəndə orada dəhşətli bir görüntünün şahidi olduq. Uşağın 4-cü qabırğasında çox böyük destruksiya sahəsi vardı. Rentgenoqrafiya müayinəsi ilə ilkin diaqnoz qoyulduqdan sonra diaqnozun dəqiqləşdirilməsi məqsədilə bu halda vacib hesab edilən KT müayinəsinə yönəltdik. Bu körpədə 4-cü qabırğada xondrosarkoma aşkar edildi və müalicə üçün müvafiq klinikaya göndərildi. Ümumiyyətlə, bu, uşaqlarda çox nadir rast gəlinən problemlərdən biridir və tərəfimizdən klinik hal kimi nüfuzlu elmi jurnalda dərc olundu".

Müsahibimiz Radiologiya şöbəsində tələbə və rezidentlərə yaradılan şərait barədə də məlumat verdi: "Şöbəmizdəki mütəxəssislər xəstəyə elmi, akademik baxımdan yanaşmaya üstünlük verirlər. Şöbəmizin müdiri, dosent Rasim Bayramov respublikamızda kifayət qədər tanınmış radioloqdur. Rezidentlərimizin gələcəyin mükəmməl radiologiya mütəxəssisi kimi hazırlanmasında köməyini əsirgəmir. O cümlədən I Cərrahi xəstəliklər kafedrası ilə birlikdə hər həftə toplantılar keçirilir, müzakirələr aparılır. Rezidentlərimizin yaxşı mütəxəssis kimi yetişməsi üçün əlimizdən gələn hər şeyi edirik".

Kafedra müdiri ilə söhbətimiz zamanı məlum oldu ki, tənəffüs, sümük-oynaq, mədə-bağırsaq sistemi xəstəlikləri, travmalarla bağlı müraciət edənlərin sayı üstünlük təşkil edir: "Cərrahi əməliyyat olunan hər kəsdə döş qəfəsinin rentgen müayinəsini aparırıq. Həmin zaman başqa xəstəliklər də aşkar etmişik. Məsələn, öd daşı, yırtıq və s. əməliyyatlara gedən pasiyentlərdə heç bir şikayəti olmadığı halda ağciyərlərdə vərəm, bədxassəli xəstəlik, hətta ikincili şiş-metastaz aşkar etdiyimiz hallar olub. Elə buna görə insanların skrininq müayinələrdən keçməsi olduqca vacibdir.

Professor M.Sultanova Beynəlxalq Radioloqlar Gününü necə qeyd edəcəkləri ilə bağlı sualımızı da cavablandırdı: "Hər il bu münasibətlə müxtəlif tədbirlər, aksiyalar keçirmişik. Bilirsiniz ki, 44 günlük Vətən müharibəsi zamanı və sonrakı dönəmdə klinikamız yaralı qazilərimizin müayinə və müalicəsi ilə məşğul oldu. Radiologiya şöbəsi olaraq qəhrəman qazilərimizin demək olar ki, hamısında müayinələr apardıq. Klinikamızın həkimləri, şöbəmizin əməkdaşları onların xidmətində qürur hiss ilə durdular. Artıq 2-ci ildir ölkəmizdə radioloqların bayramı Zəfər Gününə təsadüf edir. Əlbəttə ki, bu möhtəşəm bayramımızdan sonra tədbir və seminarlarımızı keçirməyi nəzərdə tutmuşuq".

ATU-nun kafedra müdiri sonda tibbin diaqnostika sahəsinə dair bir latın ifadəsini yada saldı: "Diagnosis certa ullae therapie fundamentum" - düzgün diaqnoz müalicənin əsasını təşkil edir. Bu yolda bütün radioloq həmkarlarıma uğurlar arzulayıram".

Qabil ABDULLAYEV

Noyabrın 12-si Ümumdünya Pnevmoniyaya qarşı Mübarizə Günüdür. Pnevmoniya nədir və onun səbəbləri, əsas əlamətləri hansılardır? Risk qrupuna kimlər daxildir? Bu və digər suallara ATU-nun Ağciyər xəstəlikləri kafedrasının müdiri, dosent Rafiq Bayramov "Təbib" qəzetinin əməkdaşı ilə söhbətində aydınlıq gətirib.

Yüksək temperatur, bəlğəmli öskürək, təngnəfəslik...

Dosent Rafiq Bayramov pnevmoniyanın səbəbləri və müalicəsi haqda danışır

Həkim bildirib ki, pnevmoniya və ya sətəlcəm ağciyər toxumasının iltihabi xəstəliyidir. Etiologiyasından asılı olaraq bakterial (pnevmokok, stafilokok, fridlender çöpləri və s.), virus (koronavirus, qrip, paraqrip, respirator-sinsitial, adenovirus və s.), pnevmosist, rikketsioz, parazitar və göbələk mənşəli pnevmoniyalar ayırd edilir: "Hüceyrədaxili törədicilərin (legionellər, mikoplazmalar, xlamidiyalar) yaratdığı pnevmoniyalar atipik pnevmoniyalar adlanır. Xüsusilə, son illərdə koronavirus pandemiyası ilə əlaqədar olaraq virus pnevmoniyası olan xəstələrin sayı artıb. Gənclərdə pnevmoniyaları adətən hər hansı bir törədici yaradır (monoinfeksiya), amma yaşlı və yanaşı xəstəliyi olan şəxslərdə pnevmoniyanın səbəbi çox vaxt bakterial, yaxud virus-bakterial assosiasiyalı olur ki, bu da adekvat etiotrop müalicənin seçilməsində çətinlik yaradır".

R.Bayramov vurğulaıb ki, pnevmoniya ilə hər kəs xəstələnə bilər. Amma əsas risk qrupları kiçikyaşlı uşaqlar və yaşı 65-i ötənlər, şəkərli diabet, QİÇS, xroniki ağciyər-ürək və mədə-bağırsaq xəstəliyi olanlar, orqanizmin immun sistemini zəiflədən preparatları qəbul edənlər, ağır cərrahi əməliyyat (məsələn, orqan köçürülməsi, açıq ürək əməliyyatı və s.) keçirənlər, zərərli vərdişləri (siqaret, alkoqol) olan şəxslərdir.

Pnevmoniya ilə xəstələnmə durumu barədə məlumat verən mütəxəssis deyib ki, dünyada olduğu kimi, ölkəmizdə də daha çox uşaqlar, yaşlılar, xroniki xəstəliyi olanlar və immun sistemi zəif olan insanlar xəstələnir: "Ümumdünya Səhiyyə Təşkilatının məlumatına əsasən, dünyada 5 yaşadək uşaqların ölüm səbəblərinin 15%-i pnevmoniyaların payına düşür. Belə ki, hər il dünyada 800 000-dən çox beş yaşadək uşaq pnevmoniyadan dünyasını dəyişir. İldə hər 1000 nəfərdən 10-15, yaşlı insanlar arasında isə hər 1000 nəfərdən 25-44-ü pnevmoniya ilə xəstələnir. Ölüm səbəbinin ümumi strukturunda pnevmoniyalar ilk beşlikdə yer alır. Hospitaldankənar pnevmoniyalarda ölüm gənc və orta yaş qruplarında 1-3%, yuxarı yaş qruplarında isə 15-30% təşkil edir. Hospital şəraitli pnevmoniyalarda isə ölüm bəzi hallarda 50%-ə çatır".

Pnevmoniyanın əsas əlamətlərindən söhbət açan həkim söyləyib ki, bu, xəstənin yaşından, ağciyərlərin zədələnmə həcmindən, törədicinin növündən və s. asılı olaraq müxtəlif ola bilər. Klinik əlamətləri isə fərdi olaraq müxtəlif dərəcədə büruzə verə bilər: "Adətən pnevmoniya kəskin inkişaf edərək qısa müddətdə döş qəfəsində ağrı, temperaturun yüksəlməsi, bəlğəmli öskürək və təngnəfəsliklə xarakterizə olunur. Bəzi hallarda isə pnevmoniya soyuqdəymə və kəskin respirator virus infeksiyalarından (qrip) sonra inkişaf edir. Qeyd etmək istərdim ki, pnevmoniyalar zamanı da müşahidə edilən təngnəfəslik əlaməti, alveolların 25%-i fəaliyyət göstərdiyi halda, sakit vəziyyətdə olan orta yaşlı şəxslərdə müşahidə edilmir. Yəni, ağciyərlərin ¼ hissəsinin fəaliyyəti oksigenə olan tələbatı ödəyə bilir".

Pnevmoniyaların diaqnostikası və müalicəsi haqqında danışan kafedra müdiri qeyd edib ki, xəstənin şikayətləri, radioloji və laborator müayinələrin nəticələri əhəmiyyətlidir: "Son zamanlarda koronavirus pnevmoniyası ilə əlaqədar olaraq insanların daha çox narahatlığına səbəb olan, KT müayinəsi zamanı ağciyərlərdəki "buzlu şüşə" görüntüsü yalnız COVİD-19 ilə bağlı deyil, ağciyər toxumasının sıxlaşmasına səbəb olan bütün hallarda (pnevmoniya, ağciyər vərəmi, kiçik qan dövranındakı durğunluq və s.) müşahidə oluna bilər. Vaxtında diaqnoz qoyulub, doğru müalicə aparılmazsa, pnevmoniyadan ağırlaşmalar inkişaf edə, bu da həyati təhlükəli ola bilər. Risk qrupuna aid olan və immuniteti zəif xəstələr üçün pnevmoniya xüsusilə təhlükəlidir. Ona görə də bu qrupdan olan şəxslərə profilaktika məqsədilə pnevmoniya əleyhinə vaksinasiya tövsiyə olunur.

Pnevmoniyanın müalicəsi ixtisaslı mütəxəssis tərəfindən, xəstəliyin ağırlıq dərəcəsinə, törədicinin növünə və ona qarşı dərmanlara həssaslığa müvafiq olaraq kompleks aparılmalıdır".

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR:

Kafedraların professorları:
- II Cərrahi xəstəliklər kafedrası -- 1 yer (0,5 vahid)
- III Daxili xəstəliklər kafedrası-- 1 yer (0,5 vahid)
- I Uşaq xəstəlikləri kafedrası -- 1 yer (0,5 vahid)

Kafedraların dosentləri:
- Dermatovenerologiya kafedrası - 1 yer
- Normal fiziologiya kafedrası - 1 yer
- I Uşaq xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)
- Psixiatriya kafedrası - 1 yer (0,5 vahid)
- Tibbi profilaktika kafedrası (HTF) - 1 yer
- I Mamalıq və ginekologiya kafedrası - 1 yer
- Ağız və üz-çənə cərrahiyyəsi kafedrası - 1 yer
- Patoloji fiziologiya kafedrası - 1 yer
- Ortopedik stomatologiya kafedrası - 1 yer (0,75 vahid)
- Bioloji kimya kafedrası - 1 yer
- Şüa diaqnostikası və terapiyası kafedrası - 1 yer
- Əczaçılıq toksikologiyası və kimya kafedrası - 1 yer (0,75 vahid)

Kafedraların assistentləri:
- I Mamalıq və ginekologiya kafedrası - 1 yer (0,75 vahid)
- I Mamalıq və ginekologiya kafedrası - 3 yer (0,5 vahid)
- Oftalmologiya kafedrası - 1 yer (0,75 vahid)
- Patoloji fiziologiya kafedrası - 1 yer (0,75 vahid)
- Ailə təbabəti kafedrası - 2 yer (0,5 vahid)
- II Daxili xəstəliklər kafedrası - 1 yer

Kafedraların baş müəllimləri:
- Tibbi-biologiya və genetika kafedrası - 1 yer (0,75 vahid)
- Xarici dillər kafedrası - 1 yer
- Farmakoqnoziya kafedrası - 2 yer (0,5 vahid)
- Əczaçılıq toksikologiyası və kimya kafedrası - 1 yer (0,5 vahid)

Kafedranın müəllimi:
- Xarici dillər kafedrası - 3 yer

Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:
AZ 1007, Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi,14
Telefon: 597-10-08

Müsabiqədə iştirak etmək istəyənlərin nəzərinə

Kafedralar üzrə vakant yerləri tutmaq üçün müsabiqədə iştirak edənlər Elmi katibliyə aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Rektorun adına ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqəsi (yeni formatda).
3. Kafedradan verilmiş xasiyyətnamə. Xasiyyətnaməni kafedranın müdiri və həmkarlar təşkilatının sədri imzalamalıdır. Xasiyyətnamənin müsbət və ya mənfi olması, o cümlədən bu şəxsin yeni müddətə kafedrada çalışıb və ya çalışmaması əsaslandırılmalıdır. Kafedra müdiri vəzifəsinə iddiaçılara xasiyyətnaməni fakültənin dekanı və həmkarlar təşkilatının sədri imzalamalıdır.
4. Tərcümeyi-hal. Burada şəkil, ad, soyad, bitirdiyi məktəblər, elmi ad və dərəcələr, bildiyi dillər, bildiyi kompüter proqramları, çap olunmuş işlərin sayı, işlədiyi yerlər, hazırkı vəzifədə neçə il çalışması, niyə bu vəzifədə yenidən seçilmək istəməsi, olduğu ixtisasartırma kursları, ailə vəziyyəti barədə ətraflı məlumat, yaşadığı ünvan, elektron poçt ünvanı və telefonu göstərilməlidir.
5. ATU-nun klinikalarında çalışanlar üçün son beş ilin həkimlik fəaliyyəti barədə klinikadan verilmiş arayış. Arayış klinikanın direktoru və həmkarlar təşkilatının sədri tərəfindən imzalanmalıdır.
6. Son beş il ərzində çap olunan elmi işlərin siyahısı. Siyahı müəllif və kafedra müdiri tərəfindən imzalanmalıdır.
7. Açıq mühazirənin və ya açıq təcrübi dərsin videoçəkilişinin diski.
8. Şəxsiyyət vəsiqəsinin surəti.
9. Müvafiq elmi dərəcə diplomu və elmi ad attestatının surəti.

Qeyd: ATU-nun əməkdaşı olmayan mütəxəssislər siyahıdakı 3-cü, 5-ci və 7-ci bənddəki sənədlərin əvəzinə, sonuncu iş yerindən verilən xasiyyətnamə, işlədiyi klinikadan həkimlik fəaliyyəti barədə arayış və əmək kitabçasından çıxarışı təqdim etməlidir.

Klinik diaqnozun qoyulmasında laborator analizlərin rolu

Tədris Cərrahiyyə Klinikasının Klinik-Diaqnostik Laboratoriyasının müdiri məruzə oxuyub

Noyabrın 2-də Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında (TCK) elmi seminar keçirilib. Seminarda ATU-nun Tədris Cərrahiyyə, Terapevtik və Onkoloji klinikalarının həkim və həkim-rezidentləri iştirak ediblər.

Seminarı TCK-nın Rezidentlər üzrə məsul şəxsi, assistent Namiq Xəlilov açaraq, TCK-nın Klinik-Diaqnostik Laboratoriyasının müdiri, tibb üzrə fəlsəfə doktoru, dosent Yavər Hacısoyun "Analizlərə təsir göstərən preanalitik faktorlar" mövzusunda məruzə edəcəyini bildirib.

Y.Hacısoy dövrümüzdə klinik diaqnozun qoyulmasında laboratoriyaların əhəmiyyəti, nəticələrin həkim və pasiyentlərə doğru çatdırılmasının vacibliyindən söhbət açıb. Bildirib ki, dünyada xəstəxanalara müraciət edənlərin təxminən 80 faizi laborator analiz verir: "Əksər hallarda diaqnozun 60-70 faizi laboratoriyanın nəticəsindən asılı olur. Bu, olduqca böyük rəqəmdir. Bu da bir daha laboratoriyanın klinik diaqnozda nə dərəcədə əhəmiyyətli olduğunu göz önünə gətirir".

Məruzəçi, eyni zamanda testlərin həkimlər tərəfindən necə istənilməsi, nümunələrin götürülməsi, laboratoriyaya çatdırılması, analizatorlarda işlənilməsi və həkimlərə təqdim olunması mərhələlərində buraxıla biləcək xətalar haqqında iştirakçılara geniş məlumat verib. Y.Hacısoy, həmçinin doğru zamanda və doğru nəticənin verilməsi üçün qarşılaşılacaq pre və post-analitik xətaların bilinməsi və önlənməsi üçün hansı tədbirlərin görülməsi haqqında tövsiyələrini də gənc həkimlərlə bölüşüb.

Seminar maraqlı diskussiya ətrafında öz işini başa çatdırıb.

AMUN klubu ilk tədbirini keçirib

Oktyabrın 28-də "Az-MUN" proqramı çərçivəsində Azərbaycan Tibb Universitetinin Tələbə Gənclər Təşkilatının nəzdində yaradılmış AMUN (Azerbaijan Medical University Model United Nations) klubu ilk tədbirini keçirib.

"Çəhrayı Fərq" adlı layihə çərçivəsində sözügedən tədbiri Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycan nümayəndəliyi ilə əməkdaşlıq edən AMUN klubu Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Gənclər Fondu, BMT-nin Azərbaycan nümayəndəliyi, Azərbaycan Tibb Universiteti və Milli Onkologiya Mərkəzinin tərəfdaşlığı ilə həyata keçirilən "Süd Vəzi Xərçəngi ilə Mübarizə" ayına həsr edib. Tədbirdə ATU-nun Tələbə Gənclər Təşkilatının sədri Məhəmməd Məmmədov çıxış edərək, süd vəzi xərçəngi mövzusunun aktuallığına toxunub. Xəstəlik və onunla mübarizə barədə Milli Onkologiya Mərkəzinin mütəxəssislərinin çıxış edəcəyini bildirib.

Azərbaycan Tələbə Gənclər Təşkilatının nümayəndəsi, ölkə üzrə layihənin rəhbəri Leyla Məmmədzadə süd vəzi xərçəngi xəstəliyinin insan həyatı üçün təhlükəli olmasından və layihənin əhəmiyyətindən danışıb.

AMUN klubun rəhbəri Günəş Əliyeva da mövzunun aktuallığına toxunub. Bildirib ki, layihənin əsas məqsədi əhalini, xüsusən də qadınları xərçəngin bu növü haqqında maarifləndirmək, xəstəliyin profilaktikası barədə məlumat vermək olub: "Xəstəliyin vaxtında qarşısının alınması üçün həkim-mütəxəssislərin fikir və məsləhətləri olduqca önəmlidir. Milli Onkologiya Mərkəzinin həkim-mütəxəssislərinin iştirakı ilə tələbələrimizin panel görüşünü təşkil etmişik. Paytaxt sakinlərinin sözügedən xəstəliklə bağlı maarifləndirilməsi üçün məlumatlandırma aksiyası keçirməyi də nəzərdə tutmuşuq".

Mərkəzin həkim-mütəxəssislərindən həkim-onkoloq Tünzalə Məmmədova, həkim-radioloq Asif Nəsirli, mammoloq-onkoloq Şövkət Əliyeva çıxış ediblər. Onlar xəstəliyin yaranma səbəbləri, profilaktikası və s. barədə tədbir iştirakçılarına ətraflı məlumat veriblər. Sonda tələbələrin çoxsaylı sualları cavablandırılıb.

Əməkdaşlarımız Türkiyədən mükafatla dönüblər

Azərbaycan Tibb Universitetinin əməkdaşları Antalyada keçirilən beynəlxalq ANKEM konqresində mükafata layiq görülüblər. Artıq 37-ci dəfə təşkil olunan tədbir "Sağlamlığın üçün peyvənd olun. Antibiotikdən ağılla istifadə et" şüarı altında keçirilib.

ANKEM konqresində ATU-nun I Uşaq xəstəlikləri kafedrasının dosenti Nigar Sadiyeva və II Uşaq xəstəlikləri kafedrasının baş laborantı Aysel Şıxəmmədova iştirak ediblər. ATU təmsilçiləri infeksion xəstəliklər və antibiotiklərin rasional istifadəsi ilə əlaqədar mövzuların fərqli sahələrdə multidisiplinar yanaşmasını hədəfləyən elmi tədqiqatları haqda məruzə edərək, 3-cü yer mükafatına layiq görülüblər.

ANKEM Konqresi çərçivəsində 4 konfrans, 19 panel sessiyası, 25 sözlü məruzə, 15 poster məruzə və bir peyk simpoziumu baş tutub. Tədbirdə infeksion xəstəliklərdə antibiotiklərə davamlılıq, antibiotiklərin rasional istifadəsi, epidemioloji dəyərləndirmələr, farmako-iqtisadi yanaşma, uşaq və yetkinlərin vaksinasiyası, cərrahi və kritik xəstə infeksiyaları daxil olmaqla tibbin aktual mövzuları üzrə müzakirələr aparılıb.

Stomatoloqlarımız Türkiyədə beynəlxalq konqresdə iştirak edib

Azərbaycan stomatoloqlarından ibarət nümayəndə heyəti Türk Diş Həkimləri Birliyinin 26-cı Beynəlxalq konqresində iştirak edib. Dünyanın 30-dan çox ölkəsindən mütəxəssislərin qatıldığı tədbir İstanbul Konqres Mərkəzində baş tutub.

Açılışda çıxış edən Ümumdünya Stomatoloji Federasiyasının (FDI) prezidenti İhsane Ben Yahya bildirib ki, dünyada 3,5 milyarddan çox insanı əhatə edən ağız və diş xəstəlikləri qlobal miqyasda ən çox yayılmış qeyri-infeksion xəstəlikdir: "Bu xəstəliklər daha çox aşağı və orta gəlirli ölkələrdə insanlara təsir göstərir. Buna baxmayaraq, biz gərgin iş və birgə səylərlə bu sahədə bərabərsizlikləri aradan qaldıra bilərik. Elə etməliyik ki, hər kəs əlverişli və keyfiyyətli stomatoloji xidmətdən yararlana bilsin". O, bu ilin may ayında Ümumdünya Səhiyyə Təşkilatının Ağız və Diş Sağlamlığı üzrə Qlobal Strategiyasının 75-ci Ümumdünya Səhiyyə Assambleyasında təsdiqlənib qəbul edilməsindən məmnunluğunu bildirib.

Avropa Diş Həkimləri regional təşkilatının (ERO) sədri dr. Simona Dianiskova, Türk Diş Həkimləri Birliyinin və konqresin sədri dr. A.Tarık İşmen öz çıxışlarında bu sahədəki problemlərə toxunublar.

Azərbaycan Stomatoloji Assosiasiyasının prezidenti, ATU-nun Uşaq stomatologiyası kafedrasının müdiri, professor Rəna Əliyeva konqres çərçivəsində Türkiyə ilə coğrafi, sosial, peşəkar və mədəni baxımdan qonşu olan ölkələrlə stomatologiya sahəsində fikir mübadiləsi aparmaq, elmi və iqtisadi əməkdaşlığı artırmaq məqsədilə təşkil edilən 9-cu Qonşu Ölkələr Stomatoloji Assosiasiyaları Əməkdaşlıq Platformasının toplantısında iştirak edib. Toplantının sonunda Ağız Sağlamlığının Tanınması Bəyannaməsi qəbul olunub. Bəyannamə ağız sağlamlığı ilə əlaqəli vacib funksiyaları sadalayır, eyni zamanda həm fiziki, həm də psixi sağlamlıq baxımından ağız sağlamlığının əhəmiyyətini vurğulayır.

Konqresdə iştirak edən ATU-nun Uşaq stomatologiyası kafedrasının əməkdaşları Sevinc Nağıyeva, Aytən Yusubova, Nigar Həsənli, Ortopedik stomatologiya kafedrasının əməkdaşı Gülçin Əbdüləzimova, diş həkimləri Səbinə Xəlilova, Aytac Məmmədova və Nərgiz Kəlbiyeva maraq dairələrinə uyğun olaraq bir sıra konfrans və kurslara qatılıb, stomatologiya sahəsində baş verən yeniliklərlə tanış olublar.

Etibarsız sayılır

Ağayeva Nəzrin Nəzər qızı (qrup 8B); Mehta Taghi oghli Hasan qızı (qrup 422A5a); Bədirxanov Fərid Faiddin oğlu (qrup 122R1a); Əliyev Fərid Rafiq oğlu (qrup 122R1a); Furkan Akkaya Ali oğlu (qrup 180/B); Dehghani Khigavi Mahshid Javad (qrup 418İ1b); Musazadə Davud Süleyman oğlu (qrup 219A5B); Əliyev Qərib Vüqar oğlu (qrup 320A1a); Roshna Elsa Jozeph İssac Jozeph qızı (qrup 119İ4a); Sevda Amirian Amirhossein qızının (qrup 117A8) tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Allah rəhmət eləsin!

ATU Kadrlar şöbəsinin kollektivi, Tibbi və bioloji fizika kafedrasının əməkdaşları kadrlar şöbəsinin əməkdaşı Elmira Qəmbərovaya oğlu

Emil Qəmbərovun

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Ağciyər xəstəlikləri kafedrasının əməkdaşları kafedranın assistenti Şəfa Vəliyevaya atası

Malik müəllimin

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının əməkdaşları kafedranın müdiri, professor Çingiz Rəhimova qayınatası

Rəhim müəllimin

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər. Əlyazmalar geri qaytarılmır

Qəzet "Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, "Azərbaycan Nəşriyyatı" MMC-də çap olunur və universitet daxilində yayılır

Ü N V A N I M I Z:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 3302
Sayı 2250